# Kənd və qəsəbələrə yeni yollar çəkilir



Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanda yüksək sürətli sosial-iqtisadi inkişafa nail olunub. Bunu ölkəmizin gündən-günə dəyişən siması ilə yanaşı, müxtəlif beynəlxalq təşkilatların hesabatlarından da aydın görmək olur. Davamlı olaraq sosial-iqtisadi islahatlar aparılır, infrasturuktur layihələri reallaşdırılır, regionlarda yeni istehsal müəssisələri tikilir və sair. Təbii ki, sosial-iqtisadi inkişafın vacib tərkib hissələrindən biri də yol infrastrukturunun müasirləşdirilməsi, bu sahədə dünyanın mütərəqqi təcrübəsinin tətbiq edilməsidir. Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrində olduğu kimi, yol təsərrüfatının sistemli və hərtərəfli inkişafına da xüsusi diqqət ayırır.

Respublikamızın yol təsərrüfatında yeniləşmə və müasirləşmə getdikcə daha geniş arealı əhatə edir. Ötən il Azərbaycanda nəzərdə tutulan bütün infrastruktur layihələri, sosial proqramlar yüksək səviyyədə reallaşdırılıb, o cümlədən sosial infrastrukturun mühüm sahələrindən sayılan yol təsərrüfatının yenidən qurulması, yeni yolların salınması, mövcud yolların isə əsaslı şəkildə təmiri ilə bağlı layihələr uğurla davam etdirilir. Demək olar ki, əsas magistral yollar qısa müddətdə tamamilə yenidən qurulub.

Əsas magistral yolların tikintisinin başa çatması ilə yanaşı, hazırda başlıca diqqət kənd və qəsəbələri birləşdirən yolların yenilənməsinə yönəlib. Prezident İlham Əliyevin qayğısı sayəsində indi ölkəmizdə kənd yollarının müasirləşdirilməsi, əvvəllər yol olmayan kənd və qəsəbələrə yolların yüksək standartlarla çəkilməsi geniş vüsət alıb və bu cür layihələrin coğrafiyası ildən-ilə daha da genişlənir. Bir neçə gün öncə Prezident İlham Əliyevin Cənub bölgəsinə səfəri zamanı hər kəs bir daha bunun şahidi oldu. Belə ki, səfər çərçivəsində cənab Prezident ən uçqar rayonlarımızdan olan Lerik və Lənkəranda dağ kəndlərini birləşdirən bir neçə yolun açılışını etdi.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli qəzetimizə açıqlamasında bildirdi ki, bu yollardan uzunluğu 26 kilometr olan Piran-Hamarat-Vijaker yolu 4-cü texniki dərəcəyə aiddir və 28 yaşayış məntəqəsini birləşdirir: "Uzunluğu 22 kilometr olan Hirkan-Daştatük-Biləsər avtomobil yolu da 4-cü texniki dərəcəyə aiddir və 7 kəndi bir-biri ilə birləşdirir".

A.Nəcəfli diqqətə çatdırdı ki, hazırda Astara rayonunun Ojakəran-Tüləküvan-Təngərüd, Taxtanəkəran-Miki və Taxtanəkəran-Toradi kəndlərarası avtomobil yollarında da tikinti işləri aparılır. Bununla yanaşı, bir neçə ərazidə də yolların salınması, mövcud yolların isə yenilənməsi üzrə plan hazırlanır və qarşıdakı aylarda həmin ərazilərdə də işlərə başlanılacaq.

Göründüyü kimi, bu, təkcə üç rayonda yol çəkilişi ilə bağlı görülən işlərin bir hissəsidir. Hazırda ölkəmizin əksər rayonlarında da kəndarası yollar yenilənir, infrasturuktur yaxşılaşdırılır. Belə sosial layihələr isə kənd və qəsəbə sakinlərinin həyatına birbaşa təsir edir, onların istehsal etdiyi məhsulların alıcılara tez və rahat şəkildə çatdırılmasına imkan verir, bölgələrimizin turizm potensialının artırılmasına və turist axınının təmin edilməsinə geniş imkanlar yaradır.

✍ **Taleh Bağırov,**
*"İki sahil"*
20 oktyabr.- S.10. 2018